Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Səhnəmizin ilk Məcnunu

**Hüseynqulu Sarabskinin 140 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2019**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Səhnəmizin ilk Məcnunu:** Hüseynqulu Sarabskinin 140 illik yubileyi ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. K.Səmədzadə; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2019. – 20 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2019**

**Hüseynqulu Sarabskinin 140 illiyinin qeyd edilməsi haqqında**
**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2019-cu ilin mart ayında görkəmli opera müğənnisi, aktyor, rejissor, pedaqoq və teatr xadimi, Xalq artisti Hüseynqulu Sarabskinin (Hüseynqulu Məlik oğlu Rzayevin) anadan olmasının 140 illiyi tamam olur.

Hüseynqulu Sarabski Azərbaycanın teatr və musiqi mədəniyyətinin böyük nümayəndələri sırasında layiqli yer tutan tanınmış şəxsiyyətlərdəndir. Şərqlə Qərbin musiqili teatr ənənələrinin qovuşuğunda meydana gəlmiş və dünya opera sənətinin unikal hadisəsinə çevrilmiş muğam operasının təşəkkülündə onun ifaçı kimi müstəsna xidmətləri vardır. Muğamları dərindən bilən, parlaq aktyorluq istedadına malik sənətkar milli opera və operettalarda əsas partiyaların ilk və unudulmaz ifaçısı olmuş, uzunmüddətli dolğun səhnə fəaliyyəti ərzində rəngarəng obrazlar qalereyası yaratmışdır. Sarabski respublikanın mədəni həyatında yaxından iştirak etmiş, eyni zamanda, muğam sənətinin təbliği və tədrisinə mühüm töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycan teatr sənətinin inkişafı naminə təqdirəlayiq fəaliyyətini nəzərə alaraq Xalq artisti Hüseynqulu Sarabskinin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi görkəmli sənətkar Hüseynqulu Sarabskinin 140 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 mart 2019-cu il.

## Tərtibçidən

Ecazkar səsli müğənni, istedadlı aktyor və rejissor, gözəl təşkilatçı Hüseynqulu Sarabski milli mədəniyyətimizin inkişafında görkəmli rol oynamışdır. Azərbaycan SSRİ xalq artisti H. Sarabski dahi bəstəkar Üzeyir Hacıbəyovla birlikdə milli opera sənətimizin beşiyi başında durmuş, onun pərvazlanması üçün böyük səy göstərmişdir. Onun zəngin və çoxcəhətli yaradıcılığı Azərbaycan musiqili teatr sənətinin inkişafına sərf olunmuşdur.

Azərbaycan teatr sənətinin inqilabdan əvvəlki digər məşhur nümayəndələri kimi H.Sarabskinin də uşaqlıq və gənclik illəri ağır məşəqqətlər, ehtiyac içində keçmişdir. Lakin səhnəyə dərin məhəbbət bəsləyən H. Sarabski bütün maneələrə sinə gərmiş, xalqın sevimli müğənnisi, teatr xadimi, aktyoru və rejissoru olmuşdur.

H. Sarabski səhnəyə ilk dəfə 1902-ci il iyulun 1-də N. Nərimanovun "Dilin bəlası" komediyasında Rəsul rolunda çıxmışdır. Tamaşa müvəffəqiyyətlə keçmişdir. Gənc oğlanın məlahətli səsi, daxili ehtirası, səhnəyə həvəs və marağı yazıçı və ictimai xadim N. Nərimanovun diqqətini cəlb etmişdir. O, Sarabskiyə müəllimlik etmiş, ona mənəvi arxa olmuşdur. N. Nərimanov kimi mətin, cəsur inqilabçılarla dostluq və birgə iş gənc aktyorun ictimai-siyasi baxışlarının formalaşmasında böyük rol oynamışdır.

1906-cı ildə cavan, lakin şöhrət qazanmış aktyor H. Sarabski üç pyes "Axtaran tapar", "Cəhalət", və "Nə əkərsən, onu da biçərsən" səhnə əsərlərini yazır. O vaxt repertuar kasıblığı çəkən teatrımız bu pyesləri tez-tez tamaşaya qoyurdu. Varlıların nadanlığı, ədalətsizliyi, mənəvi eybəcərliyi, qoçuların özbaşınalığı və burjua cəmiyyətindəki digər mənfi hallar həmin pyeslərin tənqid hədəfi idi.

Mütərəqqi ziyalılar milli teatr sənətimizin inkişafı, xalqın tərəqqisi və təkamülü üçün bütün mərhumiyyətlərə baxmayaraq yorulmadan çalışırdılar. Məhz bu məqsədlə 1906-cı ildə Bakıda "Müsəlman dram artistlərinin birliyi" yaradıldı. H. Sarabski də bu truppanın yaradılmasının təşəbbüsçülərindən və təşkilatçılarından idi. Elə həmin ildə Bakıda fəhlə klubu – "Balaxanı dram dərnəyi" və "Təkamül" bolşevik qəzeti yanında "Həmiyyət" adlı dram truppası təşkil olunmuşdur. Bu dərnək və truppanın fəaliyyətində, tamaşaların hazırlanmasında, gənc qüvvələrin teatra cəlb olunmasında H. Sarabski yaxından iştirak etmişdir.

1905-1907-ci illərdə Bakıda bir sıra xeyriyyə və mədəni-maarif cəmiyyətləri vardı. Bunlardan biri də "Hicat" maarif cəmiyyəti idi. "Hicat"cəmiyyəti idarə heyətinin mütərəqqi üzvləri yaxşı başa düşürdülər ki, "Müsəlman dram artistlərinin birliyi"nin fəaliyyəti Azərbaycanda professional teatr sənətinin yaradılması yolunda ilk addımdır. Buna görə də onlar qüvvətli aktyor truppası yaratmağa çalışırdılar. Sarabski birincilər sırasında "Nicat" cəmiyyətinin teatr bölməsinə dəvət olunur. Qızğın fəaliyyətə başlayan, bir sıra maraqlı rollar ifa edən H. Sarabski H. Ərəblinski ilə çiyin-çiyinə çalışırdı. O, həmçinin Ü. Hacıbəyovla şəxsən tanış olur. Ondakı fitri istedadı, güclü səs diapazonunu görüb-duyan Ü. Hacıbəyov H. Sarabskiyə "Leyli və Məcnun" operasında Məcnun rolunu təklif edir.

İlk Azərbaycan operasının "Leyli və Məcnun" nun tamaşaya qoyulması böyük hadisəyə, sənət bayramına çevrildi. Operaya Tiflisdən, Gəncədən, Vladiqafqazdan, İrəvandan və başqa şəhərlərdən teleqrafla bilet sifariş edilirdi. Şair Abbas Səhhət öz dostları ilə tamaşaya baxmaq üçün Şamaxıdan Bakıya gəlmişdi.

"Leyli və Məcnun" operasının ilk tamaşasından sonra Sarabskinin şöhrəti daha da artdı, adı dillər əzbəri oldu.

H. Sarabskinin şövq və ilhamla yaratdığı Məcnun obrazı həqiqi məhəbbətlə sevən, məşəqqətlərə sinə gərən lirik, həssas qəlbli, şair təbli obraz idi. Aktyorun ən böyük qələbəsi onda idi ki, o, həm vokal cəhətdən, həm də obrazın mənəvi aləmini açan psixoloji dərinliyi ifa etmək baxımından məharət göstərirdi.

Azərbaycan musiqili teatrının səhnəsində Sarabski qaynar və coşqun yaradıcılıq fəaliyyəti ilə yanaşı, dram teatrında da yorulmadan işləyirdi. O, ifaçılıqla bərabər, rejissorluq da edirdi. Azərbaycan dram teatrının səhnəsində bu gözəl aktyor 40-dan çox rolda çıxış etmiş, bir sıra pyeslərə quruluş vermişdir.

Bu gözəl sənətkarın yaradıcılığının ən mühüm cəhətlərindən biri də onun pedaqoji fəaliyyəti idi. O, H. Hacıbababəyov, M. Bağırov, Ə.Sadıqov, H. Rzayeva kimi gözəl opera aktyorları tərbiyə etmişdir. H. Sarabski respublikada ilk dəfə olaraq Asəf Zeynallı adına musiqi məktəbində xalq vokal sinfinə başçılıq etmişdir.

## Bölmə I

## Həyat və yaradıcılığı

*Azərbaycan peşəkar musiqili teatrının yaradıcılarından biri, məşhur aktyor, istedadlı rejissor, xanəndə, pedaqoq, görkəmli teatr xadimi, xalq artisti Hüseynqulu Sarabskinin anadan olmasının 140 ili tamam olur.*

Hüseynqulu Məlik oğlu Rzayev 1879-cu il martın 20-də Bakıda dənizçi ailəsində anadan olmuşdur. İki yaşında atasını itirən Hüseynqulu gənclik çağlarında bir müddət matros, daşyonan və s. peşələrdə işlədikdən sonra taleyini teatra bağlamış, bütün qalan həyatını səhnə sənətinə həsr etmişdir.

Onun teatrda ilk rolu N. Nərimanovun "Dilin bəlası" pyesindəki Rəsul surəti olmuşdur. Bundan sonra M.F. Axundovun "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında Məstəli şah, Ş. Saminin "Dəmirçi Gavə" əsərində Fərhad, N. B. Vəzirovun "Müsibəti-Fəxrəddin"

faciəsində Fəxrəddin, Ə. B. Haqverdiyevin “Pəri Cadu” əsərində Qurban, V. Şekspirin “Otello” faciəsində Yaqo, N. V. Qoqolun “Müfəttiş” komediyasında Lyapkin-Tyapkin surətləri ilə sənət sınağından çıxarılan gənc aktyor ona bəslənən ümidləri doğrulda bilmişdir.

Ötən əsrin əvvəllərində peşəkar teatr xadimləri Bakı neft xadimləri Bakı neft sənayeçilərinin qurduğu “Nicat” xeyriyyə cəmiyyətində birləşirdilər. Tamaşalardan birində Üzeyir bəy Hüseynqulunun oyununu görüb bəyənir və ona yazmaqda olduğu “Leyli və Məcnun” operasında baş rolu oynamağı təklif edir. Bundan sonra Üzeyir bəy onunla müntəzəm və gərgin məşq edir.

Nakam sevgi olayının qəhrəmanını H. Sarabski özünün aktyor təxəllüyündə gənc, sağlam, azad fikirli Qeys və dəli, xəstə, mühitdən uzaqlaşmış Məcnun kimi iki mərhələyə bölürdü. O, Məcnunun xarakterini müəyyənləşdirmək barədə çox düşünürdü. Aktyor bu səbəbdən hətta dəlixanaya gedərək ruhi xəstələri müşahidə etməkdən belə çəkinməmişdi. O, nəhayət, qərara almışdı ki, Məcnun eşq dəlisidir və onun obrazını məhz bu aspektdə yaratmaq lazımdır.

12 yanvar 1908-ci il milli musiqi salnaməmizə qızıl hərflərlə həkk olundu. Həmin gün Şərqdə ilk opera olan “Leyli və Məcnun” böyük müvəffəqiyyətlə tamaşaya qoyuldu. Baş rolun ifaçısı Hüseynqulu Sarabskinin şəninə daha çox alqış səsləri ucaldı. H. Sarabski tamaşanı belə xatırlayır: “Oyunun birinci, ikinci pərdələrini var qüvvəmlə oynayırdım. İkinci pərdə düşdükdən sonra yaldaşlarım və teatrda iştirak edənlər mənim başıma yığışıb “Afərin! Afərin!-deyə təbrik edir və bu alqışlarla daha da mənə qüvvət verib deyirdilər. Hüseynqulu, əgər üçüncü pərdədə də belə yaratsan, artistlik adını qazanacaqsan! Üçüncü pərdəni başladıqda mən cəsarətlə onlara dedim: Gedin, tamaşa edin, görərsiniz. O pərdədə məndə elə bir hiss oyandı ki, tamam Hüseynqululuğumu unudub bir Məcnun kəsilmişdim. Səhnə

mənim üçün elə bil səhra idi. Mənimlə iştirak edənləri tanımırdım, gözlərim heç bir şeyi görmürdü.

Pərdə düşdükdən sonra camaatın məni dəfələrlə sürəkli alqışlar içərisində pərdə qabağına çağırması və yoldaşlarımın pərdə dalında məni əhatə edib öpmələri mənə o qədər təsir etdi ki, biixtiyar ağladım. Bu oyundan sonra camaat və səhnə yoldaşlarım məni "Məcnun" deyə çağırardılar".

Tamaşanın xoş sorağı Azərbaycanın hər yerinə yayıldı. Opera bir müddətdən sonra Şəkidə oynanıldı və baş rolun ifaçısı camaat tərəfindən qızıl nişanla mükafatlandırıldı. 1913-cü ildə aktyorun Qarabağa qastrol səfəri onun yaddaşına əbədi həkk olundu. Səfər zamanı həmin opera üç dəfə göstərildi. Sarabski qastroldakı ilk tamaşanı sonralar sənət bioqrafiyasının zinəti kimi xatırlayırdı. "Leyli və Məcnun" operası 1914-cü ildə Tiflis, Dərbənd, 1916-cı ildə Aşqabad şəhərlərində qastrollarda məhəbbətlə qarşılandı.

H. Sarabski 1908-1941-ci illər ərzində 62 yaşına kimi Məcnun qiyafəsində 400 dəfədən çox səhnəyə çıxmışdır. Səhnə fəaliyyətinin ilkin çağlarında bir psixoloji maneəni də dəf etməyə məcbur olurdu. O, təxminən 20 il ərzində Leyli rolunda qadın libası geyinmiş kişilərlə – Ə. Fərəcov, Ə. Ağdamski, H. Hacıbababəyov kimi sənət fədailəri ilə, tək-tük hallarda isə dilimizi bilməyən, müsiqimizə yabancı olan əcnəbi xanımlarla tərəfdaş olmuşdu. Canından artıq sevdiyi Leylisini kişilərin ifasında görən aktyorun keçirdiyi mənəvi iztirabları duymaq çətin deyildir. Bu vəziyyət truppa üzvlərini, xüsusilə Üzeyir bəyi və Sarabskini get-gedə daha çox narahat etməkdə idi. 1927-ci ildə məşhur xanəndə Əbdülbaqi Zülalovun (Bülbülcan) qızı Əzizə Məmmədova nəvəsi Sona Hacıyevanın səhnəyə gəlişi onlar üçün əsl bayrama çevrildi. Onların ardınca Xurşid xanım Qacar, Məhbubə Paşayeva, Fatma Gəncinskaya, Dilarə İsgəndərova, Ümmu Əhmədova, Leyla Təhmasib, Həqiqət

Rzayeva bir-birinin ardınca səhnəyə çıxdılar. Xüsusilə, sonuncunun məlahətli səsi və təbii oyunu muğam operası tamaşalarına, eləcə də Sarabskinin oyununa yeni təravət bəxş elədi. Hüseynqulu Sarabski aktyorluqla yanaşı 1910-cu ildən rejissor kimi də fəaliyyət göstərir. O, Üzeyir Hacıbəyovun "Rüstəm və Zöhrab" (1910), "Ər və arvad" (1910), "Arşın mal alan" (1913) və C. Məmmədquluzadənin "Ölülər" əsərlərinə (1916) quruluş vermiş, ömrü boyu "Leyli və Məcnun" operasını tamaşaya qoymağı arzulamışdır.

Asəf Zeynallı adına musiqi məktəbində muğamatdan dərs deyən Hüseynqulu Sarabski muğam tamaşaları üçün istedadlı gənclər hazırlanması işini daim diqqət mərkəzində saxlayırdı. Respublikanın xalq artisti Sara Qədimovanın xatirələrindən... "Yaxşı yadımdadır. Gənc vaxtlarım idi. Səhnədə, necə deyərlər, ayaqlarım yavaş-yavaş möhkəmlənirdi. Muğamlarımızın ifasında az-çox tanınmışdım. Elə o vaxtlar Üzeyir bəy məni operaya dəvət etdi. Mənim yanımda müəllimim Hüseynqulu Sarabskiyə dedi: "Qızı Leyli roluna hazırla". Ancaq o vaxt mən bu təklifin məsuliyyətini hiss edərək, razı olmadım. Axı, tez idi. Ancaq boynuma alım ki, Leyli və Əsli obrazlarını yaratmağın həmişə arzusunda olmuşdum. Sonra illər ötdü, vaxt gəlib çatdı. Sənətdə əldə etdiyim təcrübə özü buna imkan verdi".

Güclü həyat eşqi, sönməz sənət yanğısı H. Sarabski üçün daim ilham mənbəyi olmuşdur. Bu hiss həyatının son dəqiqələrinə qədər onu tərk etməmişdi. Deyilənə görə, Sarabski ölüm yatağında öz xahişinə əsasən Qurban Primovun tarda müşayiəti ilə Həqiqət Rzayevanın ifasında Leylini dinlədikdən sonra 1945-ci il fevralın 16-da gözlərini əbədi yummuşdur.

## Bölmə II

## Yubiley tədbirlərinin keçirilməsi

Azərbaycanın görkəmli musiqi və teatr xadimi Hüseynqulu Sarabskinin anadan olmasının 140 illiyi münasibətilə respublikamızın hər bir təhsil ocaqlarında, musiqi məktəbləri, gimnaziyalar, kitabxanalarda geniş və maraqlı tədbirlər planı hazırlanmışdır.

Bildiyiniz kimi aktyorun yubileyi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı bütün mətbuatda dərc olunmuşdur. Elə bu sərəncama əsasən də biz F. Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, geniş və yadda qalan tədbirlər planı hazırlamışıq.

İlk olaraq görkəmli aktyor, rejissor və musiqi xadimi H. Sarabskinin yubileyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasının oxu zalında sərgi təşkil olunur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Qüdrətli sənətkar", "Hüseynqulu Sarabski – 140", "Səhnəmizin ilk Məcnunu" və s. Sərginin nümunəsini sizlər üçün təqdim edirik.

**Başlıq:**

1. "Hüseynqulu Sarabski – 140";
2. Dövri mətbuatda dərc olunmuş qəzət və jurnalların kartotekası, bukletlərin nümayişi;
3. Görkəmli insanların H. Sarabski haqqında söylədikləri fikirlər;
4. Haqqında dərc olunmuş kitabların, qramafon, səs yazıları, musiqi vallarının nümayişi;
5. İfa etdiyi rolların foto sərgisi.

## Görkəmli şəxsiyyətlər Hüseynqulu Sarabski haqqında

Məcnun obrazının ifasında qazandığı böyük müvəffəqiyyətdən sonra aktyorun fəaliyyətində sənətkar yetkinliyi, intensiv və çoxcəhətli yaradıcılıq dövrü başlanır. Sarabski Azərbaycan musiqili teatrının bütün sonrakı tamaşalarında baş qəhrəmanların obrazlarını yaradır.

**Şəmsi Bədəlbəyli,**
*Xalq artisti*

Hüseynqulu Sarabski Məcnundan savayı, milli opera və operettalarımızda əsas partiyaların – Şeyx Sənan, Şah Abbas, Kərəm, Sərvər, Əsgər və s. obrazlarının ilk ifaçısı kimi də musiqi və teatr tariximizdə şərəfli yer tutur.

**Vaqif Əliyev,**
*aktyor*

Azərbaycan mədəniyyətində Hüseynqulu Sarabski böyük bir musiqi və teatr intibahının ilk qaranquşlarından idi. Aktyor, müğənni, xanəndə, rejissor, musiqi-ictimai xadimi kimi bu böyük sənət fədaisi, bütün mənalı həyatını doğma vətəninə, xalqına həsr etmişdir. Qədirbilən xalqı  da onu yaddaşında əbədi yaşadacaq.

***

Hüseynqulu Sarabskinin şirin, məlahətli səsinin bənzərsiz çalarları var idi. Müasirlərinin yazdığına görə bu səs həmişə həzin və yumşaq səslənərdi. Sanki ürəyidağlı Məcnunun pərişan qəlbinin yanğısı həmişəlik Sarabskinin səsinə hopmuşdu.

**Rəna Məmmədova,**
*sənətşünaslıq doktoru*

Mədəniyyətimizin inkişafı tarixində milli opera sənətinin, musiqili teatrının ilk yaradıcılarından biri, aktyor, rejissor, müğənni, yazıçı-dramaturq kimi tanınan Hüseynqulu Sarabskinin yubileyi ilə bağlı keçirilən silsilə tədbirlərdən biri də kitab müzakirəsidir. Kitab müzakirəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbir **"Əsərin qəhrəmanı müəllifdir"** adı altında təşkil olunur. Kitabxanaçı təşkil olunan tədbirə yazıçı və şairlərlə yanaşı, ədəbiyyat müəllimlərini, musiqişünasları və kitabsevər oxucuları dəvət edir. Tədbirdə H. Sarabskinin keçən yüzilliyin sonlarından əsrimizin 40-cı illərinə kimi geniş bir dövrü əhatə edən "Köhnə Bakı", "Bir aktyorun xatirələri", "Hüseyn Ərəblinskinin tərcümeyi-halı" adlı kitablarının müzakirəsini keçirmək olar. Kitabxanaçı tədbiri açıq elan edir.

Sarabskinin xalqına, doğma şəhərinə məhəbbəti hüdudsuzdur. "Köhnə Bakı" əsərində bu, xüsusilə aydın nəzərə çarpır. H. Sarabskinin öz dövrü haqqında xatirələri – "Köhnə Bakı", "Bir aktyorun xatirələri" kitabları da XX əsr Azərbaycan mədəniyyət tarixini öyrənmək üçün dəyərli, unikal məlumatlarla zəngin qiymətli mənbələrdir.

XX əsrin əvvəllərində Azərbaycan tarixinin çeşidli olaylarını – kiçik bir ailədən tutmuş, böyük bir şəhər həyatına kimi həmin dövrün müasirinin gözü ilə əks etdirən əsərlər o qədər də çox deyil. "Köhnə Bakı" sadəcə bir aktyorun xatirələri, onun diqqətini çəkən və maraqlandıran məqamların, hadisələrin cəlbedici təqdimatı deyil. Bu kitab Bakının ən əlamətdar, möhtəşəm tarixə dönmüş həyatının sanki "güzgüsüdür". Hüseynqulu Sarabski Bakının, özünün adlandırdığı kimi, "köhnə Bakının" rəngarəng, təkrarolunmaz boyalarla işlənmiş tarixi, bədii, kulturoloji-etnoqrafik səviyyəsini verir. Köhnə Bakı sanki yüz min bucaqdan işıqlandırılır: kitabı vərəqlədikcə, oxucu özünü səriştəli bələdçinin müşayiəti ilə virtual bir

gəzintidə hiss edir. Köhnə Bakının artıq həm adları, həm də özləri tarixə çevrilmiş darısqal, dolanbac, küçə və döngələrini, bazar və binalarını gəzir, İçərişəhəri dolaşır. Burada yaşayan insanlarla görüşür. Onların həyatı, məişəti, dərdləri, sevincləri, zarafatları, iş-peşəsi ilə tanış olur. Bir sözlə, Bakının XX əsrin əvvəllərindəki tarixini, həyatını yaşayır.

"Köhnə Bakı" məzmununa, mövzusuna, təhkiyə tərzinə, ən başlıcası, üslub qarışıqlığına görə ənənəvi memuarlardan fərqlənir. Başqa xatirələrində olduğu kimi, burada da müəllif gördüklərini, şahidi olduqlarını yazıya alır.

Kitaba daxil olan memuarlar müxtəlif mövzulardan bəhs etsələr də, bədii quruluş cəhətdən bir-birindən fərqlənsə də, onları birləşdirən başlıca xüsusiyyət təsvir olunan dövrün ictimai məzmunu, koloriti ilə yanaşı memuarlarda müəllif obrazının iştirakıdır. Müəllif keçmiş günləri uzun müddət hafizəsində, yaddaşında saxladıqlarını qələmə almaqla, o illəri, elə bil bir də yaşayır, xatırladıqca şəxsi həyatını zamanın, xalqın ümumi həyatı kontekstində yenidən səhifələyir, olub keçmişlər gözündə yeni çalarlar, rənglər kəsb edir və nəticədə, təbii olaraq, öz kimliyini, dünyagörüşünü ictimai fikrin mühakiməsinə vermiş olur.

1938-ci ildə yazılmış "Köhnə Bakı" əsərində keçən əsrin əvvəlindəki Bakının həyatı və məişəti ilə bağlı müxtəlif hadisələr müəllifin şəxsi müşahidələrinin süzgəcindən keçərək rəngarəng bədii boyalarla təsvir edilmişdir.

Həmçinin kitabda Bakı həyatının spesifik səhifələri-bağa köçmə, bağ məişəti, bağ oyunları ("Tağı külah, Nağı sər" oyunu), qocaların bağ məşğuliyyətləri və s. öz əksini tapır. Kitabın qəhrəmanları-Kəblə Novruzqulu, onun oğlu Kərim, Nurcahan xala, Gülpəri, qocalardan suraxanılı Əlbəndə oğlu Vəhşi, Qaraçı, maştağalı Ağa Nur Qəni, qalabəyi Qasım bəy, Prator adlı rüşvətxor pristav, qaçaq Bahadır oğlu Xanbala, qaçaq

Ağa Rəhim nəvəsi Hüseynqulu, Məşədi Püstə bacı kimi insanlar maraq doğurur. Köhnə Bakının böyük bir toy mərasiminin silsiləsi də elə gənc Gülpərinin taleyi baxımından açılır:qızı görmə, məşvərət, elçilik, kəbinkəsmə, cehiz, nişan, qız toyu, nəhayət oğlan toyu...Bütün bu mərhələləri H. Sarabski maraqlı bir həmsöhbət kimi incələyir. Adaxlıbazlığın maraqlı bir cəhəti də oxucunun diqqətini çəkir: "Suraxanıda, ümumiyyətlə, Azərbaycanda evlənmək adətlərində belə bir dəb var idi ki, adaxlı oğlan axşamlar qızı görmək üçün adaxlıbazlığa gedər, onunla söhbət edər, görüşər, yaylıqdakı şirnidən, qoğaldan verər və qayıdardı". Bu misralar Ü. Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasında Məşədi ibadın adaxlıbazlığının bir el adəti olduğuna şahidlik edir. Bakı kəndlərində bəzən adamların həyatını əsl cəhənnəmə döndərən ədavət və qısqanclığın nümunəsi kimi H. Sarabskinin söylədiyi əhvalatlar da köhnə Bakı həyatının bir səhifəsi idi. H. Sarabski, ümumiyyətlə, Bakı kəndlərini-Suraxanı, Zabrat, Maştağa, Şüvəlan əhvalatlarını, o kəndlərin sakinlərini də qələmi ilə tarixin yaddaşına yazır. Adi sakinlərin həyat tarixçələrini, söz-söhbətlərini oxuduqca köhnə Bakının sanki əhvalı-ruhiyyəsini hiss edirsən, adət etdiyin, bəzən də əsl mənasına varmadığın misalların, zərb-məsəl və kəlamların (məsələn, "hamam suyu ilə dost tutmaq"), kökünün haradan gəldiyini anlayır, necə deyərlər, kökünü tapırsan.

Kitabda Azərbaycanda uşaq və gənclərin asudə vaxtlarını keçirmək üçün oynadığı oyunlar haqqında geniş məlumatlar verilir. Bu oyunların bir çoxu artıq tarixə çevrilib, bəziləri isə bu gün də məişətdədir. Novruz bayramındakı "Mil", "Sino", "Zorxana", "Qundaq-qundaq", "Al bunu", "Bənövşə", "Yoldaş, səni kim apardı", "Habudu getdi, Şahbudu gəldi" oyunları da kitabda təsvir olunub. Ümumilikdə, H. Sarabski 16 xalq oyununun icrası, xarakteri, məzmunu haqda məlumat verir. H. Sarabski hər bir oyunun qaydasını təfərrüatı ilə izah edir.

Tədbirin sonunda oxucular "Qələndər ay Qələndər" oyununu nümayiş etdirirlər.

Azərbaycan teatr sənətinin məşhur nümayəndələrindən biri H. Sarabskinin anadan olmasının 140 illiyi ilə bağlı F. Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecəyə kitabxanaçı iki ay qabaqcadan hazırlaşmalıdır. Bu tədbir oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbirə "Qüdrətli sənətkar" adlı başlıq verilir. H. Sarabski yaradıcılığını yaxından izləyən sənət adamları, teatrşünaslar, ədəbiyyat müəllimləri və s. tədbirə dəvət olunur. Səhnədən H. Sarabskinin portreti asılır. Səhnə gül-dəstələri ilə bəzədilir.

*Aparıcılar səhnəyə daxil olur.*

**I Aparıcı:** Bu gün haqqında danışdığımız şəxs, aktyor ruhunun tamamını yaşayan Hüseynqulu Sarabski-tam adı ilə desək Rzayev Hüseynqulu Məlik oğludur. O, şəxs ki, böyük iradəyə sahib, mədəniyyət tarixində öz sözünü demiş, teatr irsinin möhürünü vurmuşdur.

XX əsr Azərbaycan milli musiqi mədəniyyətinin parlaq şəxsiyyətləri sırasında öz yeri, öz mövqeyi olan sənətkar. Adı əsrin yeniləşən, dəyişən, müasirləşən sənət aləminin simvollarından birinə çevrilən, əsrin səsinə səs verən, tarixi yaradan sənət fədailərindən biri. O, səhnəmizin əfsanəvi Məcnunudur. Sənətini musiqi incisi-"Leyli və Məcnun" zirvəsindən başlayan Hüseynqulu Sarabski bütün ömrünü bu zirvənin məsuliyyətini, onun ucalığını dərk edərək yaşamış, sənətinə, peşəsinə vurğunluğu ilə nəsillərə nümunə olmuş və olacaqdır.

Hüseynqulu Sarabski 1879-cu ildə Bakıda kasıb bir ailədə anadan olmuşdur. Əslində onun həyatı maraqlı bir filmin sujeti ola bilərdi: taleyi də, sənət yolu da, daxilən bütöv, mətin, qarşısına qoyduğu məqsədə gedən yolda hər cür maneələri dəf

edən, ən əsası isə sevdiyi işinə, peşəsinə vurğunluğunu ömrünün son anınadək saxlayan böyük bir aktyorun, şəxsiyyətin həyat tarixçəsidir. İlk sənət məhəbbətinə o, son nəfəsində sadiq qaldı.

Uşaqlıqdan H. Sarabski musiqiyə böyük həvəsi və yaxşı səsi ilə seçilirdi. O, xatirələrində yazırdı: "Məhərrəmlik vaxtında dini havalar oxuyar, mərsiyə deyər, minacat çəkər, eyni zamanda el şənliklərində, toyda-bayramda muğamlara, mahnılara qulaq asar, öyrənərdik". 12 yaşlı Hüseynqulu ilk dəfə teatr tamaşasına baxır: bu, həvəskarların ifasında "Xan Sarabi" adı ilə qoyulmuş Mirzə Fətəli Axundovun "Sərgüzəşti-vəziri-xanı-Lənkəran" komediyası idi.

İstedadlı aktyor H. Sarabskinin "Qərənfilsən, butasan" adlı kitabında toplanmış şifahi xalq ədəbiyyatının müxtəlif növlərinə aid topladığı nümunələrdən sizlər üçün təqdim edirik.

Bir nəfər müştəri papaqçıya papaq tikdirirdi. Papaqçı bunun başını ölçüb soruşdu.:

-Qardaş, papağın nə rəng olsun.

Papaq tikdirən dedi ki, papağın rəngi nə qara, nə ağ, nə boz və nə çal olsun.

Papaqçı dedi:

-Baş üstə, qardaş.

Müştəri papaqçıdan soruşdu:

-Papaq nə vaxt hazır olar ki, gəlim aparım.

Usta cavab verdi:

-Nə cümə gəl, nə şənbə gəl, nə yekşənbə gəl, nə düşənbə gəl, nə şəşənbə gəl, nə çarşənbə gəl və nə də cümə aşxamı gəl.

Müştəri soruşdu:

-Bütün həftə günlərinin heç birində gəlməyim, bəs haçan gəlim?

Usta cavab verdi:

-Nə vaxt sən papağının rəngini desən, mən də günün adını deyərəm.

**II Aparıcı:** H.Sarabski sənət adamı idi. Qüvvətli müşahidəçilik qabiliyyəti ilə Bakıda qeyd olunan bayramları, mərasimləri etnoqrafik təfərrüatları ilə çatdırırdı. H.Sarabskinin gözündən adi bakılı ailəsinin məişəti, olayları da yayınmır. Burada o, artıq ədib-yazıçı kimi çıxış edir: onun qələmə aldığı əhvalatlar kiçik hekayə-novellaları xatırladır.

Oxucular səhnəyə daxil olur. Mərasim və el nəğmələrindən söyləyirlər.

**I Oxucu:** Dağların başında lalələr bitər,
Qırılır qolbağım danəsi itər,
Yar yardan ayrılmaq ölümdən betər,
Qadaların mənə nə dedim sənə.

Çıxdım divar üstə, gördülər məni,
Yarım əzazildir, öldürər məni.
Anama deməyin o döyər məni,
Qadaların mənə nə dedim sənə.

Qatı yaxdım çıxdım divar üstünə,
Əmim oğlu gördü məni dəstinə,
Bir də gördüm anam gəldi üstümə,
Qadaların mənə, nə dedim sənə.

Bütün dəbdəbəsi, rəngarəngliyi ilə ətraflı təsvir edilən Novruz bayramının ənənələri də böyük maraq doğurur, bayram şirniyyatlarının bişirilməsinin təsviri diqqəti cəlb edir. Süfrəsinin çeşidləri, uşaq və yeniyetmələrin əyləncələri, "Cızıq turnası" oyunu, bu oyun zamanı oxunan mahnılar, "Qələndər, ay qələndər" oyunu, axır çərşənbələr, səməni bişirmə... Kitabda Bakı həyatının spesifik səhifələri-bağa köçmə, bağ məişəti, bağ oyunları ("Tağı külah, Nağı şər" oyunu), qocaların bağ məşğuliyyətləri və s. öz əksini tapır.

Oxucular səhnəyə daxil olur: "Qərənfilsən, butasan" adlı kitabdan bir neçə bayatı söyləyirlər.

**I Oxucu:**
Gedirəm gedən olsa,
Dərdimi bilən olsa,
Yazaram qalın kitab,
Sənə yetirən olsa.

Əzizim, bu Vətəndə,
Gözüm yoldan ötəndə,
Qəriblik yaman olar,
Baş yasdığa düşəndə.

Mən aşiq Vətən yaxşı,
Geyməyə kətan yaxşı,
Qəriblik cənnət olsa,
Ölməyə Vətən yaxşı.

Dağlar dağımdır mənim,
Qəm oylağımdır mənim.
Dindirməyin, qan ağlaram,
Yaman çağımdır mənim.

Əzizim, günə düşdüm,
Kölgəndən günə düşdüm.
Evin yıxılsın fələk,
Sən deyən günə düşdüm.

Mən aşıq, sini-sini,
Doldur ver sini-sini.
Mənə öz yarım gərək,
Neylərəm özgəsini.

Qaşların qibləgahdır,
Ucun əğmə günahdır.
Dağları duman aldı,
O da mən çəkən ahdır.

Əlimdə qəfəsim var,
Saxlaram həvəsim var.
Çəkərəm yar qəhrini,
Nə qədər nəfəsim var.

Bağa girdim bağbansız,
Dəvə gördüm sarbansız.
Aləmə dərman oldum,
Özüm qaldım dərmansız.

**I Aparıcı:** “Bir aktyorun xatirələri” kitabında Sarabski, özünün ağır həyatını və teatrla cəmiyyət arasındakı ziddiyyətin ağır səhifələrini həkk etdirmişdir. Bu kitabı oxuduqda hər bir oxucu əminliklə deyə bilər ki, “təhsil əngəl tanımır” şüarı tam da yerini tapır. Əslində yalnız iradəsi, gücü olan insanlar həmişə öz amalları uğrunda hər şeyə qatlanırlar.

Görkəmli aktyor və müğənni Hüseynqulu Sarabskinin 140 illiyinin qeyd olunması doğma Azərbaycanımızın mədəniyyətinə, incəsənətinə, onun görkəmli nümayəndələrinə olan daimi diqqətin və qayğısının təzahürüdür.

**S O N**

## Ədəbiyyat siyahısı

### *Əsərləri*

Köhnə Bakı. - Bakı : Şərq-Qərb, 2006. - 144 s. : il. - (Müasir Azərbaycan ədəbiyyatı).

Qərənfilsən, butasan. - Bakı : Elm və Təhsil, 2013. - 112 s.

### *Haqqında*

**Kərimov İ.** Hüseynqulu Məlik oğlu Rzayev (Sarabski (1879-1945)) // Azərbaycan teatr tarixi. - Bakı : Elm, 2008. - S. 438-446.

**Rəhimli İ.** Hüseynqulu Sarabski (20.03.1879 – 16.02.1945) // Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı. – Bakı : Nağıl evi, 2008. – S.14 - 16.

**Rüstəm S.** Hüseynqulu Sarabski // Seçilmiş əsərləri. 3 clddə. - Bakı : Şərq-Qərb, 2005. – C. 2. - S. 256-258.

### *Dövri mətbuatda*

**Hüseynqulu Sarabskinin 140** illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (4 mart 2019-cu il) // Azərbaycan. - 2019. - 5 mart. - № 52. - S. 2.

**Abbaslı T.** Səhnə-sənət Məcnunumuz : Hüseynqulu Sarabski // Mədəniyyət. - 2014. - 19 mart. - № 21. - S. 13.

**Fərəcova Z.** Sənətə Məcnun eşqi : Hüseynqulu Sarabski - 140 // Azərbaycan : qəzet. - 2019. - 4 aprel. - № 71. - S. 7.

# Səhnəmizin ilk Məcnunu

(metodik vəsait)

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 100
Çapa imzalanmışdır: 11.04.2019
Tirajı:100
Pulsuz